AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

*Əlyazması hüququnda*

**AYGÜN MUSA QIZI MƏMMƏDOVA**

# ƏRƏB XİLAFƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANDA SİKKƏ ZƏRBİ VƏ PUL DÖVRİYYƏSİ

5505.02 **-** Arxeologiya

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

BAKI – 2013

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Milli Azərbaycan Tarixi Muzeyinin «Numizmatika və epiqrafika» elmi-fond şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Əli Məhəmməd oğlu Rəcəbli**
*əməkdar mədəniyyət işçisi,*
*tarix elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **İlyas Atababa oğlu Babayev**
*AMEA-nın müxbir üzvü,*
*tarix elmləri doktoru, professor*

**Qənirə Əli qızı Pirquliyeva**
*tarix üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin “Ümumi tarix” kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu nəzdində fəaliyyət göstərən (5505.02 - «Arxeologiya») tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən FD 01.171 Dissertasiya Şurasının “_31_” __05__ 2013-cü il tarixli iclasında saat ______ keçiriləcəkdir.

Ünvan: AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti 31

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat “_______” ________________ 2013-cü il tarixdə göndərilmişdir.

FD 01.171
Dissertasiya Şurasının
elmi katibi, tarix üzrə fəlsəfə doktoru: **S.H.Aşurov**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yeni sikkə tapıntıları, özəlliklə, sikkə dəfinələrinin hesabına zənginləşən maddi bazaya və yeni tədqiqat üsullarına əsaslanan çağdaş numizmatika köməkçi tarixi fənnlər çərçivəsindən çıxaraq, cəmiyyətin iqtisadi-siyasi tarixinin, maddi və mənəvi mədəniyyətinin öyrənilməsində xüsusi yeri olan müstəqil elm sahəsinə çevrilmişdir. Əksərən təsadüfi, qismən də arxeoloji qazıntılar nəticəsində aşkarlanan numizmatik artefaktların tədqiqi sayəsində yazılı mənbələrin və arxeoloji tapıntıların zəif işıqlandırdığı hadisələrə aydınlıq gətirilməsində, bəzi hallarda tarixdə izsiz qeyb olmuş və ya yetərincə öyrənilməmiş siyasi qurumlar, dövlət və dövlət başçıları, şəhərlər – zərbxanalar haqqında xəbər verən numizmatik bilgilərin yeri və rolu danılmazdır.

Numizmatik tapıntıların tədqiqi sayəsində orta əsrlərdə beynəlxalq ticarət əlaqələrinin marşrut və miqyasını, əmtəə-pul münasibətlərinin durumunu, sikkə zərbi üsulları və texnikasının səviyyəsini, bir sıra tarixi-siyasi problemlərin yaranma səbəblərini açıqlamaq mümkündür. Dissertasiya mövzusunun öyrənilməsi həmçinin müxtəlif elm sahələri – arxeologiya, xronologiya, tarixi coğrafiya, siyasi iqtisadiyyat, linqvistika, paleoqrafiya, sənətşünaslıq və s. ilə inteqrasiya sayəsində qarşılıqlı maraq yaradan məsələlərin həlli baxımından da xüsusi önəm kəsb edir.

Hazırda İslam Konfransı Təşkilatı, AŞPA-nın üzvü olan müstəqil Azərbaycan Respublikasının müxtəlif dini konfessional etiqadlara mənsub yaxın və uzaq xarici ölkələrlə zəngin qarşılıqlı əlaqələr tarixi vardır. Bu əlaqələr başlıca olaraq 2500 il ərzində Azərbaycanda monetar pul dövriyyəsi dönəmində zərb olunan və dəfinələr, təksaylı tapıntılar şəklində respublika ərazisində, eləcə də ölkənin hüdudlarından kənarda aşkar olunan Azərbaycan sikkələri və xarici ölkələrin respublika ərazisində tapılan numizmatik faktlar ilə təsbit olunur.

VII-IX əsrlərdə Azərbaycan zərbxanalarında kəsilən və ölkənin siyasi, iqtisadi və mədəni tarixinin tədqiqində çeşidli problemlərinin dəqiq və əvəzsiz qaynaq rolunu oynamaqla yanaşı Yaxın və Orta Şərqin müsəlman dövlətləri, həmçinin məsihi ölkələrlə ticarətdə beynəlxalq valyuta rolunda çıxış edən, lakin elmi ədəbiyyatdan kənarda qalan numizmatik artefaktların tədqiqata cəlb edilməsi mövzunun aktuallığını səciyyələndirən amillərdəndir. Çünki «çoxəsrlik tarixi, zəngin mənəvi və maddi irsi olan Azərbaycan hələ miladın yeddinci əsrindən İslam dünyasının bir hissəsini təşkil edir. Avropa ilə Asiya arasında, Qafqaz ilə

Yaxın Şərq arasında mühüm coğrafi məkanda yerləşən Azərbaycan həmişə bir çox dövlətlərin diqqət mərkəzində olmuş, müxtəlif sivilizasiyalar arasında körpü rolunu oynamışdır». Ümummilli liderin bu çoxmənalı və lakonik sözləri tədqiqata cəlb olunan mövzunun geniş mənada aktuallığına şübhə yeri qoymur. Odur ki, milli numizmatikamızda Ərəb Xilafəti dövründə, VII-IX əsrlərdə Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi məsələsini tam şəkildə tədqiqata cəlb etmə zərurəti yaranmışdır.

İslam dininin əsas mahiyyətinin açıqlanması üçün onun erkən dövrünün – «qızıl əsri»nin numizmatik baxımdan araşdırılması da xüsusi aktuallıq daşıyır. Hesab edirik ki, bu tədqiqat işi istənilən digər numizmatik araşdırmalar kimi konseptual mahiyyətindən asılı olmayaraq, akademik İ.Meşşaninovun «yeraltı muzeylər ölkəsi» adlandırdığı yurdumuzda tez-tez və bir qayda olaraq təsadüfi aşkarlanan sikkə tapıntılarının qanunsuz mənimsənilməsinə diqqəti cəlb etmək və bu sahədə təbliğat işini artırmaq kimi çox önəmli bir məsələyə də xidmət edəcəkdir.

Araşdırdığımız mövzunu aktuallaşdıran amillərdən biri də xalqımızın tarixi varisliyə əsaslanan iqtisadi həyat tərzinin getdikcə dəyişikliyə uğraması və bir çox ənənəvi iqtisadi proseslərin müasirləşməsidir. Məhz bu səbəbdən də xalqımızın iqtisadi həyatında baş verən tarixi təkamülü izləmək və onu bərpa etmək baxımından orta əsr şəhər-zərbxanalarının tədqiq olunmasına ciddi ehtiyac vardır. Qeyd etmək lazımdır ki, indiyə kimi Azərbaycan Respublikasının müxtəlif məkanlarında aparılan arxeoloji qazıntılar zamanı və ya təsadüfi halda VIII - IX əsr Azərbaycan sikkələrinin tapılmasına baxmayaraq, onlar ümumiləşdirilmiş şəkildə numizmatik tədqiqata cəlb olunmamış, bununla da Azərbaycanın islam dövrünə dair zərbxanalarının fəaliyyəti əsaslı elmi təhlildən kənarda qalmışdır. Yeni sikkə tapıntıları araşdırmağa çalışdığımız problemin müxtəlif təhlilinə yol açdığı üçün ona milli numizmatikamızda yenidən diqqət yetirmək aktuallıq kəsb edir.

Təqdim olunan dissertasiya mövzusu ərəb dövrünün Azərbaycan zərbxanalarının kompleks şəkildə geniş tədqiqata cəlb olunması yolunda edilmiş ilk təşəbbüsdür.

**Mövzunun öyrənilmə dərəcəsi.** VII əsrdə Yaxın Şərq tarixində əsaslı sosial və siyasi dəyişikliklərlə iz qoymuş teokratik müsəlman dövləti – Ərəb Xilafəti tarixinin yazılı və maddi-mədəniyyət tapıntıları əsasında tədqiqi bir neçə yüzillikləri əhatə edir. Yeni dinin meydana çıxması və onun təbliği uğrunda edilən yürüşlərin nəinki ərəblərin, həmçinin digər xalqların da taleyində kəskin dəyişikliklər yaratması, bu dövlətin təşəkkülü

tarixinin öyrənilməsini aktuallaşdıraraq, çoxsaylı tədqiqat işlərinin meydana çıxmasına səbəb olmuşdur.

Ərəb Xilafətində çoxsaylı hərbi yürüşlər nəticəsində meydana çıxan sosial-siyasi hadisələri açıqlayan yazılı qaynaqlar sırasında VII – XII əsrin xristian mənbəşünasları, VIII - XIII əsr ərəbdilli, habelə İran, Azərbaycan və digər salnaməçilərin tarixi, etnoqrafik və coğrafi məzmunlu kitabları, yürüşlər haqqında qeydləri, həmçinin onların yenidən işlənilmiş və tərcümə edilmiş məlumatları mühüm əhəmiyyətə malikdir.

XIX – XX əsr Avropa alimlərindən - G.Weil, G.Flügel, A.Kremer, N.Tornau, A.Butler, G.Le Strange, H.Kennedy və b. tədqiqatlarında Xilafət tarixi hərbi-siyasi, hüquqi, iqtisadi və sosial-ictimai baxımdan araşdırılmış, sistemli və müqayisəli şəkildə nəzərdən keçirilmişdir.

Müasir Avropa tədqiqatçılarından - W.Thackston, J.Keenan, Z.Rubin, L.Conrad, C.Beckwith, R.Crews, I.Shahid, W.Kaegi və d. əsərlərində Xilafət tarixinin müxtəlif məsələlərinin tədqiqi davam etdirilir.

Rusiya tarixşünaslığında A.Krımski, B.Zaxoder, V.Bartold, Y.Belyayev, N.Piqulevskaya, A.Yakubovski, L.Nadiradze, O.Bolşakov, A.Kolesnikov, A.Lundin, M.Piotrovski, V.Minorski və d. tədqiqatlarında Xilafətin yaranması uğrunda aparılan işğalçılıq yürüşləri, hakimiyyət təsisatları, idaretmə qaydaları, müsəlman qoşununun etnik, sinfi quruluşu və sosial-dini məsələlər araşdırılmış, V.Bartold, M.Artamonovun tədqiqatlarında Azərbaycanda İslam dininin yayılması, Xəzər xaqanlığı və xəzərlərin Qafqaz ölkələrinə hücumu məsələləri şərh edilmişdir. İ.Kraçkovskinin Qurani-Kərimin rus dilinə, daha sonra akad. Z.Bünyadov və akad. V.Məmmədəliyevin Azərbaycan dilinə tərcüməsi Xilafət tarixində bu sahə ilə əlaqədar yeni səhifələr açmışdır.

Müasir dövrün Rusiya nəşrlərində Xilafət tarixi maraq dairəsində qalmaqdadır.

XX əsrdən etibarən Azərbaycan tarixçilərinin əsərlərində araşdırdığımız mövzunun müxtəlif aspektləri öyrənilmişdir.

Akademik Z.Bünyadovun XX əsrdə nəşr edilmiş əsərlərində, 1989-cu ildə isə Azərbaycan dilində çap olunmuş «Azərbaycan VII-IX əsrlərdə» monoqrafiyasında Azərbaycanın ərəblər tərəfindən istilası dövrünün siyasi, sosial-iqtisadi vəziyyəti, yerli hakimiyyətin ərəb Xilafətinə münasibəti, istilaçılara qarşı xalqın azadlıq mübarizəsi işıqlandırılmış, monoqrafiyanın III fəslinin VII bölməsində Xilafət dövründə Azərbaycan şəhərlərində ticarət və digər ölkələrlə ticarət əlaqələrini göstərən ticarət yolları ilə yanaşı pul təsərrüfatının durumuna da diqqət yetirilmişdir.

Akademik N.Vəlixanlının «Ərəb Xilafəti və Azərbaycan» monoqrafiyasında və b. tədqiqat əsərlərində ərəb coğrafiyaşünas-səyyahlarının məlumatlarına istinadən ərəb işğalları dövründə Azərbaycanın tarixi coğrafiyası yeni faktlar əsasında şərh edilmiş, dövrün tarixi-coğrafi dəyişiklikləri, orta əsr Azərbaycan şəhərləri barədə məlumatlar verilmişdir.

S.Aşurbəyli, R.Məmmədov, M.Şərifli, V.Piriyev və b. Ərəb Xilafəti dövründə Azərbaycan şəhərlərinin tarixi-coğrafi problemlərini araşdırmış, Q.Hacıyev, R.İsmayılov, N.Əliyeva, E.Nəsirov və b. tədqiqatlarında uyğun dönəmdə Azərbaycanın orta əsr şəhərləri, onların ədəbi mühiti, xilafətin sedentarizasiya siyasəti açıqlanmışdır.

XX əsrdə Azərbaycan ərazisində aparılmış arxeoloji qazıntılar nəticəsində ərəb istilasından əvvəlki Azərbaycanın orta əsr şəhərləri, zərbxanaları - Beyləqan, Bərdə, Bakı, Gəncə, Qəbələ, Şamaxı, Şabran, Mingəçevir və b. meydana gəlməsi və təsərrüfat həyatı İ.Cəfərzadə, A.Iessen, Q.Əhmədov, F.İbrahimov, N.Minkeviç-Mustafayeva, O.İsmizadə, R.Vahidov, H.Ciddi, R.Göyüşov, S.Qazıyev, Q.Aslanov, C.Xəlilov, A.Nuriyevin əsərlərində tədqiq olunmuş, hazırda İ.Babayev, T.Dostiyev, Q.Cəbiyev, A.Məmmədov, B.İbrahimli və başqalarının tədqiqatlarında davam etdirilir.

Arxeoloqlarımızın respublika ərazisində - Beyləqan (Örənqala), Mingəçevir, Bakı, Şamaxı, Şabran, Şəmkir, Gəncə, Qəbələ, Ağcabədi və digər ortaçağ şəhərlərində apardıqları arxeoloji qazıntılar zamanı - Xilafət dövrünə aid, mövzumuzla bağlı sikkələr tapılmışdır.

Azərbaycanın bir sıra maddi-mədəniyyət abidəsi həm ötən əsrdə, həm də müasir dövrümüzdə çap edilmiş əsərlərində epiqrafik baxımdan - akademik M.Nemətin, sfragistik və numizmatik baxımdan isə AMEA-nın müxbir üzvü, t.e.d., prof. İ.Babayevin tədqiqata cəlb edilmişdir.

Muzeylərdə qorunan numizmatik faktlara əsasən Xilafət tarixinin öyrənilməsinə ilk dəfə olaraq XVIII əsrdə Avropalı tədqiqatçılar J.Adler, J.Reiske, J.Eichorn tərəfindən uğurlu cəhdlər edilmişdir. O.Tychsenin müqayisəli araşdırmaları sayəsində «Məhəmməd numizmatikası» anlayışı ortaya çıxmış və müsəlman sikkələri ilkin tədqiqat obyekti olmuşdur. İslam sikkələrinə həsr edilmiş bu araşdırmalar XIX əsrdə müsəlman nümizmatikasının əsaslarını müəyyənləşdirmiş akademik X.Frenin muzeylərdəki sikkələrə istinadən apardığı çoxsaylı tədqiqatları ilə davam etdirilmiş, W.Woodward, V.Tizenhauzen, C.Tornberg, A.Mordtmann, G.Nesselmann, G.Flügel, H.Nützel, J.Olshausen, H.Lavoix, S.Lane Poole, E.Leggett və b. araşdırmalarında şimal-şərqi Avropada aşkarlanmış ilkin

ərəb fəthləri dövrünə dair numizmatik tapıntıların əsas xüsusiyyətləri, erkən islam dövründə işlədilən sasani, ərəb-sasani sikkələri tədqiq edilmiş, Qərbi Avropada tapılmış müsəlman sikkələri əsasında islam numizmatikasının müxtəlif aspektləri öyrənilmiş, xarici kataloqlarda dünya muzeylərində qorunan islam sikkələrinin təyinatı verilmişdir.

XX əsrdə muzey kolleksiyalarına yeni sikkə dəfinələrinin daxil olması nəticəsində G.Rotter, C.Wurtzel, D.Spellbergin tədqiqatlarında islam sikkələrinin paleoqrafiyası və atribusiyası məsələlərinə diqqət artırılmış, G.Miles, I.Tozen, S.Tabatabai, M.Bates, A.Bivar, J.Walkerin nəşrlərində ərəb-Bizans, ərəb-sasani, Təbəristan və ilkin islam sikkələri tədqiqata cəlb edildi, Fələstin, Suriya, İraq ərazisində zərb edilən və pul dövriyyəsində istifadə edilən ərəb sülalələrinin sikkələri R.Vasmer, A.Gordus, L.Ilisch və b. tədqiqatlarında araşdırıldı və kataloqlarda təsvirləri nəşr edildi.

Müasir dövrümüzün çoxsaylı xarici nəşrlərində (L.Domaszewicz, M.Bates, S.Sears, S.Lloyd, T.Luke, S.al-Khadem, M.Metlich, N.Schindel, L.Treadwell və s.) araşdırdığımız problemin tarixi və numizmatik baxımdan təhlili davam etdirilir.

XIX əsrdə P.Savelyevin, A.Markovun tədqiqatlarında ilk dəfə olaraq Rusiya və Skandinaviya ölkələrində aşkarlanmış müsəlman sikkələri araşdırılmış və qeyd edilən əsrdə işıq üzü görmüş Rusiya nəşrlərində (V.Qriqoryev, V.Belyaşevski, V.Trutovski) Rusiyanın müxtəlif ərazilərində aşkarlanmış kufi sikkələrinin topoqrafiyası araşdırılmış, elmi təhlillər edilmişdir.

Ötən əsrin Rusiya nəşrlərində (A.Bıkov, M.Fyodorov, A.Belenitski, A.Davidoviç, İ.Dobrovolski, S.Yanina, V.Nastiç, Q.Caparidze, V.Ryabtseviç, Q.Korzuxina, B.Koçnev, V.Kropotkin, V.Kuleşov, T.Ryazantseva, A.Fomin, Y.Prokopenko və b.) araşdırdığımız problemin numizmatik həllinə cəhd edilmişdir. Müasir dövrümüzdə Y.Beqovatov, A.Qaydyukov, A.Molçanov, N.Xan, R.Kovalyov və d. yeni numizmatik tapıntıları öyrənməyə davam edirlər.

Türkiyə Cumhuriyyətində işıq üzü görmüş tədqiqatlarda da (İ.Artuk və C.Artuk, T.Saatçı, S.Aydın) kufi sikkələri tədqiqata cəlb edilmişdir.

XX əsrdə Cənubi Qafqaz, o cümlədən Azərbaycan ərazisində aşkarlanan islam sikkələri və sikkə dəfinələrinin qeydə alınması və öyrənilməsində Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü. əməkdar elm xadimi, tarix elmləri doktoru, prof. Y.Paxomovun xidmətlərini xüsusi olaraq qeyd etmək lazımdır.

Prof. Y.Paxomovun gərgin səyi və zəhməti sayəsində 1926-1966-cı illərdə nəşr edilmiş 9 cildlik topluda respublika ərazisində və həmsərhəd ölkələrdə tapılan müsəlman sikkələri ilkin qeydiyyata alınmışdır.

Y.Paxomov, Azərbaycan Dövlət Muzeyində Numizmatika Fondunun (indiki Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondu – MATM NF) mühafizi olduğu dönəmdə (1920-1952) nəşr edilmiş əsərlərində ilk dəfə olaraq muzeyin NF-da qorunan, müxtəlif şəraitdə Azərbaycan ərazisində tapılmış sikkə dəfinələri, o sıradan Ərəb Xilafəti dövrünə aid bir neçə dəfinə tədqiq edilmiş, pasportlaşdırılmış, inventarlaşdırılmış və Azərbaycanın öyrənilməyə cəhd etdiyimiz dönəminin tarixi-numizmatik tədqiqinə cəlb edilmişdir.

Onun rus dilində nəşr edilmiş «Azərbaycan sikkələri» əsərinin I (1959-cu il) və II (1963) buraxılışlarında müxtəlif dünya muzeylərində qorunan sikkələr də nəzərə alınmaqla sasani, ərəb-sasani sikkələri ilə yanaşı Əməvi və Abbasi xəlifələri dövründə Azərbaycanda zərb edilmiş sikkələrin təyinatı verilmiş, onların yazılı mənbələrlə müqayisəli təhlili verilmişdir.

Hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda professor Y.Paxomovdan sonra NF-na daxil olan Xilafət və müsəlman dövlətlərinin sikkələrindən ibarət dəfinələr, həmçinin tək-tək sikkələr üzərindəki eyni işi 1952-ci ildən NF-nun mühafizi vəzifəsini icra edən, prof. Y.Paxomovun numizmatika fənni üzrə aspirantı, əməkdar mədəniyyət işçisi, t.e.d. prof. Ə.Rəcəbli davam etdirir.

Onun «Azərbaycan numizmatikası (sikkə zərbi və pul dövriyyəsi oçerkləri)» əsərində (1997) və “Azərbaycan numizmatikası (sikkə zərbi və pul dövriyyəsi tarixi)” mövzusunda doktorluq dissertasiyasının (2000) III fəslində, 2012-ci ildə işıq üzü görmüş «Azərbaycan sikkələri» kitab-albomunda, həmçinin çoxsaylı məqalələrində Azərbaycanda VII-IX əsrlərdə sikkə zərbi məsələləri araşdırılmış, mövcud pul dövriyyəsinin xüsusiyyətləri şərh edilmiş, XX və XXI əsrlərdə Azərbaycan ərazisində aşkarlanmış sikkə dəfinələrinə istinadən müsəlman sikkələrinin özünəməxsus cəhətləri vurğulanmışdır. Məhz prof. Ə.Rəcəblinin səyləri sayəsində NF-nun saxlanma vahidlərinin sayı artırılaraq 150 minə çatmışdır. NF-nun qeyri-məskukat kolleksiyaları əsasında MATM-nin Köməkçi tarixi fənn materialları (medal sənəti, qliptika, faleristika, bonistika, filateliya və s.) fondu təsis edilmişdir.

Azərbaycan Tarixi Muzeyinin mərhum əməkdaşı A.Rəhimovun ötən əsr məqalələrində müxtəlif ortaçağ şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış kufi sikkələrinin təyinatı verilmiş və tapılma şəraiti şərh edilmişdir.

T.e.d., professor M.Seyfəddininin «Azərbaycanın orta əsr dəfinələri (1968-1983-cü illər)» adlı əsərində, həmmüəlliyi ilə nəşr olunan çoxcildli "Azərbaycan numizmatikası" kitablarında və məqalələrində araşdırdığımız problemin bəzi aspektləri öz əksini tapmışdır.

M.Azərlinin «Xəlifə Əbd əl-Məlikin islahatları və Azərbaycan (685-705-ci illər)», N.Fərfurun «Erkən Abbasilər Xilafətində (VIII-IX əsrlər) İslam sikkələri və pul dövriyyəsi» mövzusunda namizədlik dissertasiyalarında VII əsrin sonunda Xilafətin sikkə islahatı və Azərbaycanda erkən Xilafət sikkələri araşdırılsa da, Azərbaycan zərbxanalarının tədqiqi bu araşdırmaların məqsədləri sırasında olmamışdır.

1986-cı ildə L.Əzimovanın "IX – XI əsrlərdə Azərbaycanın pul dövriyyəsi", 1990-cı ildə Z.Əliyevin "VII-IX əsrlərdə Azərbaycanın pul dövriyyəsi", 2000-ci ildə Y.Gözəlovanın "IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri", 2007-ci ildə S.Qasımovanın "Azərbaycan dövlətçilik rəmzləri tarixi qaynaq kimi (Milli Azərbaycan Tarixi Muzeyinin fond materialları əsasında)" dissertasiya işlərində araşdırdığımız problemlə əlaqədar icmal xarakterli bilgilər verilmişdir.

Dissertasiya mövzumuzun müəyyən müddəaları t.f.d. Q.Pirquliyevanın əsərlərində işıqlandırlımış, t.f.d. A.Quliyev, t.f.d. T.Quliyev, tədqiqatçılardan - M.Vəliyeva, A.Əhmədovun əsərlərində araşdırdığımız problemin işlənilmə səviyyəsi ilə bağlı şərhlər verilmişdir.

Tədqiqata cəlb etdiyimiz dövrdə fəaliyyət göstərmiş Azərbaycan zərbxanalarının yerləşdiyi orta əsr şəhərlərinin sosial-iqtisadi durumu M.Mustafayev, N.Hüseynlinin «arxeologiya» ixtisası üzrə təqdim edilmiş dissertasiya işlərində, IX-XVIII əsr yaşayış məskənlərində təsərrüfat həyatı, sənətkarlıq ilə yanaşı ticarət əlaqələri AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun «Azərbaycan arxeologiyası (orta əsrlər)» toplusunun VI cildində şərh edilmişdir.

Numizmatik ədəbiyyatda və dünya muzeyləri kataloqlarında, çoxsaylı İnternet saytlarında şərh edilmiş sikkə göstəriciləri, ölçü və çəki nisbəti barədə verilən məlumatlar tənqidi təhlillə dissertasiya işində əks olunmuş, ona cədvəllər və illustrasiyalar əlavə edilmişdir.

**Tədqiqatın obyekti.** Dissertasiya işinin tədqiqat obyekti olaraq Azərbaycan Respublikasının ərazisində arxeoloji qazıntılar, eləcə də təsadüfi tapıntılar nəticəsində aşkarlanan, AMEA Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika və Xüsusi fondlarında, həmçinin dünyanın (ABŞ, Rusiya Federasiyası, Türkiyə Cumhuriyyəti, Gürcüstan Respublikası və s.) müxtəlif muzeylərində və kolleksiyalarda qorunan sasani, ərəb-sasani,

Təbəristan, ərəb-Bizans, Bizans, Əməvi və Abbasi sikkələrindən istifadə olunmuşdur.

**Mövzunun mənbəşünaslıq bazası və xronoloji çərçivəsi.** Dissertasiya mövzusunun mənbəşünaslıq bazasını əsasən numizmatik qaynaqlar təşkil edir. Tədqiqat işinin yazılmasında yazılı qaynaqlardan, o sıradan ərəb müvərrixlərinin əsərlərindən, tarix, numizmatika, arxeologiya, sənətşünaslıq və s. elm sahələrinə həsr edilmiş ədəbiyyatdan geniş istifadə edilmiş, ötən əsrdə və müasir dövrümüzdə Azərbaycan Respublikasının şəhər və bölgələrində (Bakı, Şamaxı, Ağdam, Füzuli, Naxçıvan, Gədəbəy, Göyçay, Qəbələ, Biləsuvar, Bərdə, Lənkəran, Masallı, Şəmkir, Quba, Xanlar, Beyləqan, Gəncə, Astara, Xızı və s.) həm təsadüfi halda, həm də arxeoloji qazıntılar nəticəsində aşkarlanmış Sasani gümüş drahmaları, numizmatik ədəbiyyatda «ərəb-sasani» adı ilə tanınan sikkələrə və müsəlman (kufi) sikkələri tədqiqata cəlb edilmişdir.

Dissertasiya işinin xronoloji çərçivəsini əsasən VIII - IX əsrlər təşkil edir. Dissertasiyada ilkin ərəb işğalları ərəfəsində Azərbaycanda sikkə zərbi və pul dövriyyəsinin tədqiqi məqsədilə son sasani şahənşahları dövründə Azərbaycanda zərb edilən sikkələrlə yanaşı Azərbaycanda tapılan və onun pul dövriyyəsində işlədilən ərəb-sasani, Təbəristan, ərəb-Bizans və Bizans sikkələri də təhlilə cəlb edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada qarşıya qoyulmuş əsas məqsəd numizmatik materialların ümumiləşdirilmiş, kompleks tədqiqi, dönəmin şəhər-zərbxanalarının fəaliyyətinin araşdırılması və mövzuya aid yazılı qaynaqların təhlili əsasında uyğun dönəmdə Azərbaycanda pul dövriyyəsi və sikkə zərbinin özəlliklərini şərh etməkdir. Bununla əlaqədar olaraq aşağıdakı məsələlərin həllinə cəhd edilmişdir:

- ərəb işğalının ilk dövrlərində Azərbaycan ərazisində tapılan və pul dövriyyəsində işlədilən ərəb-sasani, Təbəristan, ərəb-Bizans, Bizans sikkələrinin topoqrafiyasını, səciyyəvi cəhətlərini açıqlamaq və Azərbaycanın pul təsərrüfatında onların yerini müəyyənləşdirmək;
- ərəb işğalı və «raşidi xəlifələr» dönəmində Azərbaycanda sosial, iqtisadi, siyasi durum və pul dövriyyəsinin özəlliklərini araşdırmaq, mövcud zərbxanaları müəyyənləşdirmək;
- Ərəb Xilafəti dövründə Azərbaycanda pul təsərrüfatının ümumi xüsusiyyətlərini çözələmək, yerli sikkələrin səciyyəvi cəhətlərini açıqlamaq, onlara dini-ideoloji amillərin təsirini öyrənmək;
- Azərbaycanda Əməvi xəlifələri dövründə fəaliyyət göstərən ərəb-Azərbaycan zərbxanalarında zərb edilmiş erkən islam sikkələrini təhlil etmək;

- Abbasilərin sikkə və xütbə hüquqlarının Azərbaycan ərazisində tətbiqini müəyyən etmək, ərəb-Azərbaycan zərbxanalarının fəaliyyətini açıqlamaq;

- Azərbaycanda Xilafət canişinlərinin sikkələrini təsvir və tədqiq etmək, canişinlərin hakimiyyət illərini araşdırmaq.

**Tədqiqatın elmi yeniliyi və təcrübi əhəmiyyəti.** Dissertasiya işi VIII-IX əsrlərdə Azərbaycan zərbxanalarında zərb edilmiş sikkələrin tədqiqinə həsr olunmuş ilk ümumiləşdirilmiş tarixi-numizmatik araşdırmadır. Təqdim olunan dissertasiya işində ilk dəfə olaraq ilk ərəb fəthləri və sonrakı mərhələdə Azərbaycanın şəhər-zərbxanalarında kəsilmiş sikkələr numizmatik baxımdan kompleks təhlilə cəlb olunmuş, onların xronoloji və tipoloji həllinə cəhd edilmişdir.

Azərbaycan ərazisində aşkarlanan sikkə dəfinələri və təksaylı sikkələrin tədqiqi sübut edir ki, bu dövrdəki ərəb yürüşləri və aramsız müharibələr pul təsərrüfatına təsirsiz ötüşməsə də, onun tam dağılması ilə nəticələnməmişdir.

Tədqiqat nəticəsində VIII-IX əsrlərdə fəaliyyət göstərmiş Azərbaycan şəhər-zərbxanaları üzə çıxarılmış, əmtəə-pul dövriyyəsi, pul təsərrüfatı problemlərinin əsl mahiyyətini, xronoloji, irsi və konseptual bağlılığını aydınlaşdırmaq, çəki-pul, pul-sikkə sistemlərinə xas olan ənənəvi ardıcıllığı çözələmək məqsədilə regionda daha öncə cərəyan edən tarixi-numizmatik proseslərə müraciət edilmişdir.

Dissertasiya işinin materialları ali məktəblərdə orta əsr şəhər problemlərinin tədrisində, ali, orta məktəb dərsliklərinin, VII-IX əsrlərə dair arxeoloji və numizmatik əsərlərin yazılmasında, həm də Xilafət numizmatikası barədə təsəvvürlərin genişləndirilməsində yardımçı ola bilər. Tədqiqat işinin nəticələri arxeoloji qazıntılarda və ya təsadüfi halda aşkarlanan sikkələrin təyinatında, həmçinin arxeoloji materialın xronoloji problemlərinin dəqiqləşdirilməsində xüsusi önəm kəsb edir.

**Tədqiqatın nəzəri və metodoloji əsası.** Dissertasiya işinin yazılmasında mövzu ilə əlaqədar olan mövcud tarixi, arxeoloji, numizmatik, sənətşünaslıq və s. sahələrə aid elmi ədəbiyyat materiallarının təhlili, ümumiləşdirilməsi, onlara elmi-tənqidi yanaşma prinsipləri əldə rəhbər tutulmuş, təsviri, tarixi-müqayisə, numizmatik tədqiqat metod və üsullarından istifadə edilmişdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya işi AMEA Milli Azərbaycan Tarixi Muzeyinin «Numizmatika və epiqrafika» elmi-fond şöbəsində yerinə yetirilmiş və həmin şöbənin "Arxeologiya" elmi-fond şöbəsi ilə birgə iclasında müzakirə olunmuşdur. Dissertasiyanın əsas

müddəaları müəllifin yerli, xarici elmi nəşrlərdə çap olunmuş məqalələri və elmi konfranslardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işinin quruluşu əsasən tədqiqatın predmet və vəzifələrindən irəli gəlmişdir. Dissertasiya işi giriş, üç fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat, ixtisarlar siyahısı, eləcə də «Əlavələr» bölməsindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın «Giriş» hissəsində mövzunun aktuallığı və işlənmə zərurəti əsaslandırılır, məqsəd və vəzifələri müəyyənləşdirilir, elmi yeniliyi və əməli əhəmiyyəti diqqətə çatdırılır.

**«Ərəb işğalı dönəmində Azərbaycanda sosial, iqtisadi, siyasi durum və pul dövriyyəsinin özəllikləri»** adlanan I fəsil dörd bölmədən ibarətdir.

**«Ərəb işğalı və Azərbaycanda siyasi durum»** adlı birinci bölmədə VI əsrin sonu – VII əsrin əvvəllərində Orta Şərq, həmçinin Cənubi Qafqazda baş verən siyasi hadisələrin təhlilinə nəzər salınaraq, yeni teokratik müsəlman dövləti - Ərəb Xilafəti və islam dininin meydana çıxması və yayılması şəraiti açıqlanır, «raşidi xəlifələr» və ilkin Əməvi xəlifələri dövründə Azərbaycanın işğalı tarixi baxımdan şərh edilir, inzibati ərazi dəyişiklikləri barədə məlumat verilir.

Ərəb fəthləri nəticəsində Azərbaycanın həm cənub, həm də şimal torpaqları Xilafət ərazisinə daxil edilir, lakin Kür çayının şimalındakı ərazilər sonrakı dövrlərdə uzun zaman ərəblərlə xəzərlərin mübahisə səbəbi olur. Əməvi xəlifələrinin hakimiyyəti dövründən etibarət başlayan və bir əsrədək davam edən bu mübarizə Abbasilərin hakimiyyəti dövründə, VIII əsrin sonunda başa çatmışdır.

**«İlkin ərəb fəthləri ərəfəsində Azərbaycanda sikkə zərbi və pul dövriyyəsi»** adlı ikinci bölmədə VII əsrin əvvəllərində Azərbaycan iqtisadiyyatında və pul təsərrüfatındakı dəyişiklər izlənilərək, ərəb işğalı nəticəsində Azərbaycan ərazisindəki inzibati durum təhlil edilmişdir.

Yazılı qaynaqlar və numizmatik tədqiqatlar nəticəsində aydın olmuşdur ki, «raşidi xəlifələr» və ilkin Əməvi hökmdarları erkən işğallar dövründə ələ keçirdikləri ölkələrdə ərazi bölgüsündə həm də istifadədə olan sikkə sistemində əsaslı dəyişiklik etməkdən ehtiyatlanmış və müəyyən müddətə əvvəlki pul sistemini qorumağa çalışmışlar.

Azərbaycan Respublikasının ərazisində Bakı, Astara, Xızı, Göyçay, Mingəçevir, Şamaxı, Biləsuvar, Lənkəran və d. bölgələrdə, VI əsrin sonu

VII əsrin əvvəllərində həm İran, həm də Azərbaycan zərbxanalarında son Sasani şahənşahları adından kəsilmiş gümüş sasani drahmalarından ibarət 30-dan çox sikkə dəfinəsi, yüzlərlə tək-tək sikkə tapıntısı aşkar olunmuşdur. Bu tapıntıların təhlili göstərir ki, son sasani şahənşahı - III Yəzdigərdin (632-651) hakimiyyətə gəlişilə zərbxanaların fəaliyyətində canlanma müşahidə olunsa da, ərəblərlə müharibələrdəki uğursuzluqlar, torpaqların işğalı şah hakimiyyətinin ərazi hüdudlarını məhdudlaşdırmışdır. Qeyd edilən dövrdə Azərbaycanın pul təsərrüfatında məhdud sayda zərbxanalar fəaliyyət göstərmiş və sikkə zərbində zəifləmə olsa da, II Xosrov dövründə kəsilmiş çoxsaylı sikkələr, müharibələr nəticəsində zəifləyən Azərbaycanın əmtəə-pul mübadiləsinin tələbatını ödəmişdir.

Bu bölmədə VI əsrin sonu VII əsrin əvvəllərində Azərbaycanın daxili pul dövriyyəsində əsasən Sasanilər dövlətinin 100-ə qədər şəhər-zərbxanasında (Kerman, Suz, Nəhrtira, Mərv, Bişapur, Dərəbcərd, İstəxr, Səcəstan, Rey, Nəhavənd, Əbərşəhr, Ramhörmüzd, Ktesifon və s.), qismən də Azərbaycan zərbxanalarında (Gilan, Naxçıvan, Boquan (Bakı), Partav (Bərdə), Dərbənd, Ərdəbil və s.) zərb edilmiş təxminən 4 q çəkiyə malik gümüş sasani drahmalarından istifadə olunduğu qeyd edilmişdir.

Fəslin **«Sasanilər dönəmində Azərbaycan zərbxanaları»** adlı üçüncü bölməsində pəhləvi əlifbasının bəzi hərflərinin çoxmənalı olması onların numizmatlar tərəfindən fərqli oxunuşu və müxtəlif coğrafi məkanlara aid edilməsi problemi ilə əlaqədar fikirlər şərh edilmiş, sikkələrin əks tərəfində onların zərb edildiyi məkanı bildirmək məqsədilə iki, bəzən isə üç və daha çox pəhləvi hərfindən ibarət olan və Sasani numizmatikasında aktuallıq kəsb edən monoqramların təhlili verilmişdir.

Bu bölmədə Sasanilər dövründə fəaliyyət göstərmiş Bakı (Boquan), Naxçıvan, Gilan, Bərdə (Partav), Dərbənd şəhər-zərbxanalarında kəsilmiş və «Airan», «Aturpatakan», «ARM» inzibati adları ilə zərb edilən sasani drahmaları təhlilə cəlb edilərək, onların topoqrafik xüsusiyyətləri, fonetik oxunuşu ilə əlaqədar fikirlər şərh edilmiş, nəticədə Sasani şahənşahları dövründə Azərbaycanda zərb edilən və numizmatik ədəbiyyatda qeyd olunmayan bəzi sikkələr aşkara çıxarılmışdır.

Təhlilin sonunda qeyd edilmişdir ki, Azərbaycanda Sasani qızıl və mis sikkələri aşkarlanmasa da, onların daxili və xarici pul dövriyyəsində istifadə edilməməsini söyləmək əsassızdır. Müəyyən edilmişdir ki, sasani gümüş drahmaları X əsrdə də Azərbaycanın pul təsərrüfatında digər sikkələrlə (ərəb-sasani, Təbəristan, Əməvi, Abbasi) birgə istifadə edilmişlər.

**«Azərbaycanda tapılan və pul dövriyyəsində işlədilən ərəb-sasani, Təbəristan, ərəb-Bizans və Bizans sikkələri»** adlı dördüncü bölmədə ərəb xəlifələrinin Azərbaycanda hakimiyyətlərinin ilk illərində 50-dən artıq zərbxanada son sasani şahənşahlarının, əsasən II Xosrovun (590 - 628) sikkələri əsasında sikkə kəsilməsi, "ərəb-sasani" sikkə qrupunun meydana çıxmasının səbəbləri araşdırılmış və bu qrup sikkələrin dövriyyə arealı müəyyənləşdirilmişdir.

Böyük bir imperiyadan miras qalmış milyonlarla gümüş sikkə – drahma gümüş monometallizminin hakim olduğu ərazilərdə, o sıradan Azərbaycanda və Ərəbistan yarımadasının özündə də ən münasib və nüfuzlu dövriyyə vasitəsi rolunu oynayırdı. Bu sikkələr üzərində həkk edilən və islamın təbliği məqsədini güdən ərəb qrafikalı yazılar onların istifadəsini «qanuniləşdirirdi». Bu tip əməliyyatlar bir neçə mərhələdə aparılmış, prototip olaraq öncə son sasani şahənşahı III Yəzdigərdin, sonralar isə əsasən II Xosrovun sikkələrindən istifadə olunurdu.

Bölmədə  Azərbaycanın Masallı, Ağdam, Gədəbəy, Zaqatala rayonlarında aşkarlanmış tapıntılara əsasən ərəb-sasani sikkələrinin təsnifatı müəyyən edilmiş, onlarda tətbiq olunan zərb tarixlərində üç tarixi eradan  - III Yəzdigərdin taxta çıxdığı 632-ci ildən hesablanan «Yəzdəgird erası»; III Yəzdəgirdin vəfatından sonrakı 651/652--ci ildən hesablanan «Yəzdəgirddən sonrakı era»dan; 622-ci ildən hesablanan hicri-qəməri təqvimdən istifadə edildiyi qeyd edilmişdir.

Azərbaycanda tapılmış Əməvi xəlifələri canişinləri - Ubeydullah ibn Ziyad, Ömər ibn Ubeydullah, Muhəlləb ibn Əbu Sufra, Həccac ibn Yusif adından zərb edilmiş sikkələrin səciyyəvi xüsusiyyətlətinin açıqlandığı bu bölmədə həm də qızıl və mis ərəb-sasani sikkələri haqqında məlumatlar verilmişdir.

Numizmatik təhlil nəticəsində ilkin Əməvi xəlifələri - Müaviyə (661-680), I Yəzid (680-683) və Əbd əl-Məlik (685-705) dövründə Azərbaycanın pul dövriyyəsində əsasən Sasani drahmaları və cüzi sayda olsa da ərəb-sasani drahmaları ilə yanaşı Təbəristan drahmalarının istifadə edilməsi aydın olmuşdur.

Naxçıvan, Gəncə, Ağdam, Füzuli, Mingəçevir və d. rayonlarda aşkarlanan tapıntıların təhlili sübut edir ki, ərəb xəlifələrinin vassalları olan, müstəqilliyini və dini inancını qorumağa çalışan hakimlər – Xurşid,

Müqatil ibn Həkim əl-Əqqi, Ömər, Səid ibn Dələc və b. adından VIII əsrin 70-ci illərindən Xəzər dənizinin cənub sahillərindəki dağlıq ərazi olan Təbəristanda həm pəhləvi, həm də kufi yazılarının həkk edildiyi drahmaların zərbinə başlanılmış və onların zərbi VIII əsrin II yarısını əhatə etmişdir. Belə sikkələrə ümumi ərazi adı olan «Təbəristan» həkk edilsə də, bu adla onun əsas şəhərləri olan Amol və ya Səriyyənin nəzərdə tutulmasını söyləmək mümkündür.

Müasir numizmatik təhlillərdə Təbəristan sikkələrindəki zərb tarixlərinin təyinatı üçün III Yəzdəgirdin son hakimiyyət illərinə (651-652) istinad edilir.

Bölmədə həmçinin Abbasi xəlifələri – Mehdi (775-785), Harun ər-Rəşid (786 - 809) dövründə zərb edilmiş Təbəristan sikkələri haqqında məlumatlar əksini tapmışdır.

Qeyd edilən dövrlə əlaqədar numizmatik tədqiqatlar sübut edir ki, Xilafətin pul dövriyyəsində həm də ərəb-Bizans sikkələri iştirak etmişdir.

Azərbaycan ərazisində ərəb-Bizans sikkələrinin aşkarlanması halları istisna olunmasa da, onların daxili pul dövriyyəsində istifadə edildiyini deməyə əsas yoxdur. Bölmədə Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda qorunan ərəb-bizans felsləri barədə qeydlər əks edilmişdir.

Bizans felslərinə bənzər zərb edilmiş, ərəb-yunan yazılarının və imperator rəsmlərinin həkk edildiyi Suriya-Fələstin seriyasından olan ərəb-Bizans felsləri VII əsrin sonlarınadək zərb edilmişdir.

Bu bölmədə Cənubi Qafqazda tapılan VI əsrin sonu VII əsrin əvvəllərinə dair dəfinələrdə sasani drahmalarının Bizans gümüş heksoqramları ilə birgə tapılması faktları təhlil olunmuşdur. Nəticədə bu sikkələrin yerli pul dövriyyəsində birgə işləndiyi, belə sikkələrin hər iki dövlətin Qafqaz uğrundakı rəqabətini və dini siyasətinin təbliğini büruzə verdiyi vurğulanmışdır.

Tədqiqata cəlb etdiyimiz dövrə aid Bizans qızıl sikkələrinin Azərbaycanda az təsadüf olunmasının səbəblərindən biri də bu dönəmdə gümüş sikkələrin əsas valyuta rolunda istifadə edilməsi olmuşdur.

Numizmatik tədqiqatlar sübut edir ki, ikinci valyuta metalı olan qızıl sikkələrin rolu “gümüş böhranı” dönəminin başlanğıcında fəallaşmışdır.

**«Ərəb Xilafəti tərkibində Azərbaycanda pul dövriyyəsi və sikkə zərbi»** adlı II fəsil üç bölmədən ibarətdir.

**«Ərəb Xilafətinin pul təsərrüfatı və pul tədavülü»** adlı birinci bölmədə yazılı qaynaqlara və numizmatik təhlillərə əsasən Xilafətin təşəkkülü prosesində istər metropoliyada, istərsə də işğal olunmuş ərazilərdə imperiyanın pul təsərrüfatı və dövriyyə vasitələri haqqında məlumat verilmiş, Xilafət canişinlərinin ilk illərdə sasani üslubunda sikkə zərb etdirməsi, onlara sikkə yazılarının pəhləvi və ərəb qrafikasında həkk olunmasının səbəbləri açıqlanmışdır.

**«Əməvilərin pul islahatı»** adlı ikinci bölmədə Əməvi xəlifəsi Əbdülməlik ibn Mərvanın (685-705) 77 = 696/7-ci ildə həyata keçirdiyi pul-sikkə islahatının əsasən bütün imperiya üzrə sikkə sisteminin təsisi, unifikasiya olunmuş – hər üç sikkə metalından (qızıl, gümüş, mis) tənzimlənmiş sikkə nominallarının - qızıl dinar, gümüş dirhəm, mis felslərin buraxılması - sikkə tipologiyasının funksional mahiyyəti açıqlanmışdır. Təhlil nəticəsində Xilafət ərazisində vahid ərəb sikkəsinin nəinki xəzinə gəlirlərinin artmasına, həm də xəlifənin mərkəzləşmə və ərəbləşmə siyasətinin möhkəmlənməsinə təkan verən ən önəmli amillərdən biri olması qeyd edilmişdir. Əsas sikkə vahidi gümüş dirhəmin daxili əmtəə-pul münasibətlərində aparıcı mövqe qazanmaqla Yaxın Şərq, Mərkəzi və Şimali Avropa ölkələrinin beynəlxalq ticarətində dünya pulu rolunu oynaması vurğulanmışdır.

Bölmədə İslami islahat sayəsində sikkələrə tətbiq olunan kufi xətti, Quran ayələri, sikkələrin nisbəti, onların çəkiləri, İslam sikkələrinin meydana çıxması nəticəsində Bizansla Xilafət arasındakı iqtisadi əlaqələrin getdikcə zəifləyərək bitməsi və bizanslıların ərəblərlə döyüşdə məğlub olmasının İslamın yayılmasına təsiri ilə bağlı fikirlər şərh edilmişdir.

Nəticədə Milli Azərbaycan Tarixi Muzeyində qorunan Əməvi qızıl dinarları barədə məlumat verilmişdir.

**«Əməvilər dönəmində Azərbaycan zərbxanaları»** adlı üçüncü bölmədə pul-sikkə islahatından sonra Xilafət sikkə kəsiminin icra olunduğu ilk işğal olunmuş inzibati vilayətlər sırasında «Azərbaycan», «Arran» və «Ərminiyyə» kimi ərazi adları daşıyan zərbxanalarda kəsilən sikkələr təhlil edilmiş, yazılı mənbələrə istinadən onların zərb edilmə məkanı ilə əlaqədar mülahizələr dəqiqləşdirilmişdir.

Numizmatik axtarışlar sübut edir ki, «Azərbaycan» sözünün həkk edildiyi ilk islam dirhəmlərinin zərbinə 78 = 697/8-ci ildən başlanılmışdır. 105 - 106 = 723 - 725-ci illərdə fəaliyyət göstərən bu zərbxanada yarım əsrlik müddətdən sonra İslam sikkələrinin zərbi yenidən bərpa edilmişdir. Belə inzibati adla kəsilən sikkələrin Güney Azərbaycanın paytaxtı Ərdəbil şəhərində kəsildiyi qeyd olunmuşdur.

Yazılı qaynaqlara əsasən ərəblərin şimalda Dərbənddən cənubda Araz çayınadək, qərbdə Tiflisdən şərqdə Xəzər dənizinədək olan sahənin «Arran» adlandırdıqları qədim Albaniya torpaqlarını özündə birləşdirən bu coğrafi adla bizə gəlib çatan ilk gümüş dirhəmlər 89 = 707/8-ci ildə zərb edilmişdir.

Təhlil nəticəsində aydın olmuşdur ki, Əməvi canişinləri «Arran» adı ilə həm də digər iqtisadi, siyasi və sosial baxımdan əhəmiyyətli olan şəhərlərdə (Beyləqan, Bərdə, Şəmkir, Gəncə və s.) sikkə zərbi icra edə bilərdilər.

“Aran” zərbxanası 89-91 = 707-710 və 120 = 737/8-ci illərdə fəaliyyət göstərmiş, Abbasi xəlifəsi əl-Mənsurun (754-775) hakimiyyəti dövründə yenidən işə başlamışdır.

«Ərminiyyə» zərbxanası ilə bağlı təhlil nəticəsində qeyd olunur ki, bütün Quzey Qafqazı əhatə edən bu inzibati bölgünün əsas hissəsini təşkil edən, əhalisi əsasən albanlar və türk toplumlarından ibarət olan Aran vilayətinə şamil edilməsinə baxmayaraq, onun bu regiona heç bir tarixi-coğrafi və “etnik” mənsubiyyəti olmayıb. Bu zərbxananın adını daşıyan ilk sikkələr 78 = 697/8-ci ildə kəsilmişdir.

90 = 708/9-cu ildən Gəncə, 92 = 710/11-ci ildən Bərdə, 93 = 711/2-ci ildən əl-Bab (Dərbənd) və “Mədinət Bəlx əl-Bəyda” (Ağ Bəlx şəhəri) zərbxanasında kəsilən erkən İslam sikkələrinin səciyyəvi xüsusiyyətlərinin açıqlandığı bu bölmədəki tədqiqat sayəsində “Ərminiyyə” adı daşıyan sikkələrin Aran vilayətinin çeşidli şəhərlərində zərb edildiyi vurğulanmışdır.

Bir sıra kolleksiyalardakı sikkələrə istinadən bu bölmədə Əməvi xəlifələri dövründə Xəzəryanı ərazilərdən tutmuş Dərbəndədək olan torpaqlarda zərb edilən mis felslər, uyğun dönəm sikkələrinin çəkisi, zərb tarixi, qrupları haqqında məlumat verilmişdir. “Ərminiyyə-Car” felslərinin təhlili nəticəsində Azərbaycanın şimali-qərbi ərazilərində zərbxanaların fəaliyyət göstərməsi qeyd edilmişdir.

**«Azərbaycanda Ərəb Xilafəti canişinlərinin sikkə zərbi»** adlı III fəsil iki bölmədən ibarətdir.

**«Abbasilər dönəmində sikkə zərbi və pul dövriyyəsi»** adlı birinci bölmədə hakimiyyətin Əməvilərdən Abbasilərə keçməsi ilə bağlı Xilafətin sikkə işində, başlıca olaraq sikkə tipologiyasında baş verən müəyyən dəyişikliklər araşdırılaraq, dirhəm və dinarların əks tərəf tipini təşkil edən 112-ci «İxlas» surəsinin əvəzinə «Məhəmməd Allahın elçisidir» ifadəsinin həkk edildiyi vurğulanmışdır.

Bölmədə müsəlman salnaməçilərinin əsərlərində Abbasilər dövründə sikkə sistemi, zərbxanaların təsisi, sikkələrin tərtibatı, çəkisi, əyarı ilə bağlı verilən bilgilər faktik numizmatik materialla müqayisəli tərzdə tədqiq edilmiş, kufi sikkələrindəki xətt növlərinin təhlili nəticəsində sikkə tipologiyasında buraxılan bəzi kalliqrafik və bəzi orfoqrafik xətalar, ifadələrin sətirdən-sətirə keçirilməsində edilmiş səhvlər, şərti işarələr qeyd olunmuşdur.

MATM-nin Xüsusi fondunda Abbasi xəlifələri dövrünə dair qızıl dinarların qorunması haqqında məlumat verilmişdir.

**«Abbasilər dönəmində Azərbaycan zərbxanaları»** adlı ikinci bölmədə 748 - 758-ci illərdə Xilafətdəki hakimiyyətin keçidi dövründə Cənubi Qafqaz zərbxanalarının fəaliyyətində zəifliyin müşahidə edilməsi vurğulanmışdır.

Azərbaycanda aparılan arxeoloji qazıntılarda tapılmış mis sikkələrdən ibarət dəfinələrin tədqiqi sayəsində ilkin Abbasilər dövründə daxili şəhər ticarətində xırda pula olan ehtiyacı ödəmək məqsədilə yerli zərbxanalarda çoxsaylı mis felslərin zərb edilməsi müəyyən edilmişdir. Bu dönəmin numizmatik təhlili Azərbaycanda daxili pul təsərrüfatının inkişaf etdiyini sübut edir.

İlkin Abbasilər dövründə Azərbaycan ərazisində zərb edilən ilk Abbasi sikkələri - anonim mis felslər 140 = 757/8-ci ilə, ikinci Abbasi xəlifəsi əl-Mənsur (754-775) dönəminə aiddir.

Beyləqan, Dəvəçi və digər rayonlarda aşkarlanan arxeoloji və təsadüfi mis fels tapıntılarına əsasən “əl-Yəzidiyyə” (qədim Şamaxı) zərbxanasının VIII əsrin 50-60-cı illərində fəaliyyət göstərməsi aşkarlanmışdır.

«Azərbaycanda Abbasi canişinlərinin sikkə zərbi» bölmələrində Azərbaycanın VIII yüzilin II yarısı – IX yüzili əhatə edən siyasi tarixinin

öyrənilməsində xüsusi önəm kəsb edən Abbasi canişinlərinin idarəçilik illərinə aid sikkələr təhlil edilmişdir.

Qəbələ, Bərdə, Şəmkir və d. rayonlarında aşkarlanan numizmatik tapıntılara əsasən Azərbaycan, Arran və "Ərminiyyə", "Ərminiyyə-əl Bab", "Ərminiyyə-Bərdə", "Mədən Bəcinəys" (Bəcinəys mədəni), "Ərz əl-Xəzər" (Xəzər ərazisi), "Mədinət Arran" (Arran şəhəri), Bərdə, Mütəvəkkiliyyə (Şəmkir) zərbxanalarının fəalliyyəti araşdırılmış, Abbasi canişinlərinin idarəçilik illəri onların sikkələri əsasında müəyyən edilmişdir.

Tədqiqat sayəsində müəyyən edilmişdir ki, Azərbaycan zərbxanalarında istehsal edilən sikkələrə 155 = 771/2-ci ildən etibarən «Məhəmməd Allahın elçisidir» ifadələrindən əlavə olaraq «Allahın ona və ailəsinə salamı olsun» yazısı həkk edilmişdir.

Numizmatik təhlil sayəsində ərəb ağalığı dövründə Azərbaycanda zərb edilən sikkələrin tipləri müəyyən edilərək, 197 = 812/3-cü ildən onların əks tərəfində «Allaha» kəlməsinin, müxtəlif titulların həkk edildiyi müəyyən edilmiş, onlardakı şərti işarələr barədə şərhlər verilmişdir.

Bölmədəki təhlil nəticəsində Abbasi xəlifələrinin Azərbaycana təyin etdikləri canişinlərin sikkələri əsasında cədvəl tərtib edilmiş, qeyri-Azərbaycan zəbxanalarının Abbasi sikkələrinin Azərbaycanda tapıldığı məkanlar qeyd edilmişdir.

Dissertasiya işinin "Nəticə" hissəsində qeyd edilir ki, VI əsrin sonu - VII əsrin əvvəllərində Azərbaycanın daxili pul dövriyyəsində əsasən Sasanilər dövlətinin müxtəlif şəhər-zərbxanalarında (Kerman, Suz, Nəhrtira, Mərv, Bişapur, Dərəbcərd, İstəxr, Səcəstan, Rey, Nəhavənd, Əbərşəhr, Ramhörmüzd, Ktesifon və s.), qismən isə Azərbaycan zərbxanalarında (Gilan, Naxçıvan, Boquan (Bakı), Partav (Bərdə), Dərbənd, Ərdəbil və s.) zərb edilmiş təxminən 4 q çəkiyə malik gümüş Sasani drahmalarından, Qərb ölkələri ilə aparılan beynəlxalq ticarət əməliyyatlarında isə sasani gümüşü ilə yanaşı Bizans solidlərindən və gümüş heksoqramlardan istifadə edilmişdir.

Yüksək texniki səviyyədə zərb edilmiş, sabit çəki, əyar və tipə malik 4 q çəkiyə malik zərdüştlük simvolikalı sasani gümüş drahması 400 ildən artıq bir dövrdə Azərbaycanın daxili pul təsərrüfatında əsas dövriyyə vasitəsi olmaqla yanaşı, Sasanilər dövlətinin süqutundan sonra da uzun

müddət Ərəb Xilafətində və beynəlxalq ticarətdə dünya pulu rolunu oynamışdır.

VII əsrin 30-40-cı illərindəki ərəb yürüşləri və daha sonra Albaniya ərazisində cərəyan edən yüzillik ərəb-xəzər mücadiləsi Azərbaycanın istehsal qüvvələrinin və şəhərlərarası əlaqələrin zəifləməsinə, zərbxanaların fəaliyyətində nizamsızlığa səbəb olaraq, ölkənin ümumi iqtisadiyyatına və pul təsərrüfatına mənfi təsir göstərsə də, onun tam məhvi ilə nəticələnmədi.

İlk ərəb xəlifələri işğal etdikləri ərazilərdə, o cümlədən, Azərbaycanda hakimiyyətlərinin ilk illərində, əvvəllər istifadə edilən sikkə zərbi ənənəsini qorumağa çalışmış və yerli əhalinin istifadə etdiyi sikkələrin görünüşündə kəskin dəyişikliklər etməkdən çəkinərək, onlara kufi xəttilə bəzi islami ifadələr (məs. «Allahın adıyla, rəbbim», «Rəbbim Allahdır», «Allahın adıyla, məlik» və d.) həkk etdirərək, numizmatik ədəbiyyatda «ərəb-sasani», «ərəb-pəhləvi» adlandırılan yeni gümüş drahmalar zərb etdirmişlər. Qeyd edilən dövrə aid Azərbaycan ərazisində tapılmış sikkə dəfinələrinin təhlili sübut edir ki, belə sikkələrin zərbində son sasani şahənşahları – IV Hörmüzd, II Xosrov və III Yəzdigərdin sikkələrinin ikonoqrafiya və simvolikası saxlanılmışdır. 50-dən artıq zərbxanada kəsilmiş bu sikkələrdə də eynilə sasani sikkələrində olduğu kimi zərbxana və zərb tarixi pəhləvi hərfləri ilə sikkənin əks tərəfində qeyd edilsə də, sasani sikkələrindən fərqli olaraq zərb tarixində üç tarixi eradan istifadə edilmiş və ərəb xəlifəsi canişininin adı pəhləvi, bəzi halarda isə ərəb qrafikası ilə həkk edilmişdir. Numizmatik tədqiqatlar sübut edir ki, islami zərbin təsisinə baxmayaraq, bu proses hicrətin 100-cü ilinədək (718) ərəb-sasani mis sikkələrinin zərbi ilə davam etdirilmiş və ilk ərəb fəthləri dövründə Azərbaycanın pul təsərrüfatında sasani, ərəb-sasani drahmaları ilə yanaşı həm də Təbəristan, ərəb-bizans drahmalarından da istifadə edilmişdir.

Ərəb Xilafətinin «islamlaşdırılması» prosesi ilk növbədə ərəb «milli» sikkə zərbi ilə başladı. Xəlifə Əbd əl-Məlikin təsis etdiyi sikkə islahatı bütün imperiya üzrə tənzimlənmiş sikkə sisteminin, unifikasiya olunmuş – hər üç sikkə metalından (qızıl, gümüş, mis) vahid şəklə salınmış sikkə nominallarının buraxılmasına yönəlmişdi. Dövrümüzədək gəlib çatan ilk əməvi sikkəsi 77 = 696/7-cı ildə kəsildiyindən islahatın həmin ildə həyata keçirildiyi güman edilir. Bu islahat nəticəsində zərb edilən əsas sikkə vahidi dirhəmin çəkisi 2,98 q, qızıl dinar bir misqal (4,26 q) və mis fels 2-3 q ağırlığında müəyyənləşdirildi, onların tipologiyası əsaslı dəyişiklərə məruz qaldı. Əvvəlki sasani, Bizans, Roma və s. sikkə tipologiyalarından tam fərqli olaraq Xilafət zərbxanalarında kəsilən sikkələrində canlı məxluqat təsvirləri ləğv edildi. Anonim zərb edilən belə sikkələrə islami şəriət qay-

dalarına əsasən müsəlmanlığı təbliğ edən konfessional mahiyyətli yazılar və Quran ayələri həkk edildi.

Yüksək əyarlı gümüş ərəb sikkəsinin əsas sikkə vahidi olaraq təsis edilməsinə baxmayaraq, Azərbaycanda aşkarlanan sikkə dəfinələrinin topoqrafiyası və təhlili sübut edir ki, belə sikkələrin Azərbaycanın pul təsərrüfatında geniş yayılmasından sonra da, VIII əsrin 20-30-cu illərində sasani drahmalarından istifadəyə daha çox üstünlük verilmişdir.

Hakimiyyətin Əməvilərdən Abbasilərə keçidi bütün Xilafət sikkələrində olduğu kimi, Azərbaycan sikkələrində də müəyyən dəyişikliklərlə müşayiət olundu. Eynilə Əməvilər dövründə olduğu kimi, ilk iki Abbasi xəlifəsi dövründə də Azərbaycanda sikkələr anonim zərb edilirdi. Abbasi xəlifəsi əl-Mehdi dövründə Azərbaycan sikkələrinə xəlifənin, vəliəhdlərin, bəzən isə ərazi hakimlərinin və d. şəxs adlarının, müxtəlif şərti işarələrin, sözlərin, xırda naxışların həkkinə başlanıldı. Azərbaycan zərbxanalarında hər üç metaldan kəsilən Abbasi canişinlərinin sikkə tipologiyası Əməvilər dövründəki kimi kufi xətti paleoqrafik dəyişikliklərlə həkk edilirdi.

Abbasi xəlifələri dövrünə aid Azərbaycan ərazisində tapılmış təksaylı sikkələr və sikkə dəfinələrinin təhlili göstərir ki, əvvəlkinə nisbətən bu dövrdə sikkə zərbi arealının genişlənməsinin, sikkə tapıntılarının artımının şahidi oluruq. Bu artım mis felslərin kəsimi ilə müşayiət olunurdu.

Respublika ərazisində aşkar olunan Xilafət sikkə zərbinə mənsub tapıntıların topoqrafik özəlliklərinə əsasən qətiyyətlə demək olar ki, bu sikkə kəsimi ilk öncə işğal olunmuş vilayətlərin adları ilə icra olunurdu. Tarixi Azərbaycan ərazisi Azərbaycan, Arran və «Ərminiyyə» vilayətlərindən ibarət olub Xilafət canişinləri tərəfindən idarə olunurdu.

Keçən əsrdə və çağdaş dönəmdə Rusiya Federasiyası ərazisində, Ağ və Baltik dənizi sahillərində, Skandinaviya ölkələrində, Polşadan İngiltərəyə olan məkanlarda rastlanan sikkə dəfinələrində ərəb sikkələri arasında Azərbaycan sikkələrinin olması, yalnız Şərq vilayətlərini deyil, həm də xarici ölkələri əhatə edən genişmiqyasılı ərəb ticarətində Azərbaycanın iştirak etdiyini sübut edir. Müxtəlif çəki dəyişikliklərinə məruz qalsa da, Azərbaycan dirhəmi X əsrin II yarısınadək olan dövrdə lokal və qlobal ticarətdə öz mövqeyini qoruyaraq, saxlamağa nail olmuşdur.

IX əsrin I rübündən etibarən Xilafətdə başlanan siyasi parçalanma nəticəsində yerli irsi əmirliklər sonradan müstəqil feodal dövlətlərə çevrilirlər. Yerli hakimlərin müstəqilliyə can atması nəticəsində orta əsr dövlətçiliyinin başlıca atributu olan sikkə zərbi hüququndan yararlanma qətiləşir və vilayət hakimləri cümə günündə icra olunan ibadətlərdən sonra səslənən xütbə nitqində öz adlarını səsləndirir, gümüş və qızıl sikkələr zərb

etdirirdilər. Bu dövrdə bəzi əmirlərin (mütəqəlliblərin) hakimiyyətdə olan sülaləyə itaət etməməsinə və müstəqillik əldə etməyə çalışmasına baxmayaraq, onlar xəlifənin ruhani hakimiyyətini qəbul edir, onun adını cümə günündəki xütbələrdə səsləndirərək sikkələrə həkk etdirirdilər. Belə üsullarla siyasi hakimiyyətlərinin qanuniləşdirilməsinə çalışan əmirlər həm də vahid İslam dövlətinə mənsubiyyətlərini bildirməyə çalışırdılar.

Dissertasiyanın sonundakı "Əlavələr" bölməsində Əməvi və Abbasi xəlifələrinin hakimiyyət illəri, Sasanilər dönəminə dair Azərbaycan sikkələrindəki monoqramlardan ibarət cədvəllər, Əməvi və Abbasi xəlifələri dövründə Azərbaycanda zərb edilmiş sikkələrin şəkilləri, Azərbaycanda aşkarlanan VII – IX sikkələrinin topoqrafik xəritələri təqdim edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:**

1.İslam numizmatikasının səciyyəvi xüsusiyyətləri (Əməvilərin və Abbasilərin sikkələri əsasında) / Azərbaycan Tarixi Muzeyi-2007, Bakı: Ziya-Nurlan, 2007, s. 427- 433

2.Ərəb Xilafəti dönəmində Azərbaycanda sikkə zərbi (VIII-IX əsrlər) / Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı: Nafta-Press, 2007, s. 148-154

3.Монетная чеканка Азербайджана и Арабского Халифата (VIII-IX вв.) / Азербайджан и азербайджанцы. Vol. 98, No. 5-8, Баку: 2008, с. 186-192

4.Ərəb Xilafəti və Azərbaycanda sikkə zərbi və dövriyyəsinin xüsusiyyətləri / Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları (aprel 2008-ci il). Bakı: Elm, 2008, s. 440-442

5.Монетная чеканка и денежное обращение Азербайджана VIII - IX вв. / Труды II (XVIII) Всероссийского Археологического съезда в Суздале. Том II, Москва: Институт Археологии Российской Академии Наук, 2008, с. 354-357

6.Из истории монетной чеканки Азербайджана VIII-IX вв. / Из истории культуры народов Северного Кавказа. Ставрополь: «Графа», 2008, с. 64-70

7.VIII-IX əsrlərdə Azərbaycanda sikkə zərbinin xüsusiyyətləri / Azərbaycan arxeologiyası. Bakı: Xəzər Universiteti nəşriyyatı, 2008, s. 76-81

8.VIII-IX əsrlərdə Azərbaycanda pul zərbinin səciyyəvi xüsusiyyətləri / Milli Azərbaycan Tarixi Muzeyi-2008. Bakı: Ziya-Nurlan, s. 411-422

9.Монетная чеканка и денежное обращение Азербайджана (VIII-IX вв.) / Пятнадцатая Всероссийская нумизматическая конференция. Москва: «Нумизматическая Литература», 2009, с. 58-59

10. Bakı zərbxanasının ilk sikkələri / Bakı İslam mədəniyyətinin paytaxtıdır. Beynəlxalq konfransın materialları (9-10 noyabr 2009). Bakı: Elm və təhsil, 2009, s. 104-106

11. Sasani və ərəb-sasani qarışıq sikkə dəfinələri / Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları (aprel 2009-cu il). Bakı: Elm, 2009, s. 447-451

12. Azərbaycanda zərb edilmiş kufi sikkələrinin səciyyəvi xüsusiyyətləri / «Azərbaycan elmi və gənclik: reallıqlar, perspektivlər və təkliflər» mövzusunda elmi konfransın materialları (7-11 dekabr 2009). Bakı: 2009, s. 74-77

13. Ərəb Xilafəti dönəmində Azərbaycanda sikkə zərbinin səciyyəvi xüsusiyyətləri / Gənc alimlərin əsərləri. № 3, Bakı: Elm, 2010, s. 176-188

14. Abbasilər dövründə Azərbaycanda sikkə zərbi / Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları (may, 2010). Bakı: Elm, 2010, s. 440-443

15. Ərəb Xilafəti dövründə zərb edilmiş sikkələr / «Elm və həyat» jurnalı. № 3-4, Bakı: «Elm» RNPM mətbəəsi, 2010, s. 75-77

16. Milli Azərbaycan Tarixi Muzeyində və dünya muzeylərində qorunan VIII və IX əsr sikkələri / «Muzeylər və mədəni irs» Milli Azərbaycan Tarixi Muzeyinin 90 illiyinə həsr olunmuş beynəlxalq konfransın materialları (31.X - 3.XI 2010). Bakı: Ziya, 2010, s. 179-182

17. Abbasi xəlifələri dövründə Azərbaycanda pul zərbinin səciyyəvi xüsusiyyətləri /Gənc alimlərin I Respublika İnnovativ İdeya Yarmarkasının tezisləri. Bakı: 2010, s.147 - 151

18. Ərəb Xilafəti dövründə Azərbaycanda mis sikkə zərbinin xüsusiyyətləri / Milli Azərbaycan Tarixi Muzeyi. Bakı: Ziya-Nurlan, 2010, s. 158-167

19. VII əsrin II yarısında Azərbaycanda zərb edilmiş ərəb-sasani dirhəmləri / «Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri» adlı respublika elmi-praktiki konfransının materialları (15 mart 2011). Bakı: Araz, 2011, s. 183-185

20. Muzeylərdə qorunan VIII əsrin I yarısında zərb edilmiş Azərbaycan sikkələri / «Muzeylərin müasir durumu və inkişaf perspektivləri» beynəlxalq elmi konfransın materialları (29 iyun – 1 iyul 2011). Bakı: Ziya, 2011, s. 72-73

21. Bərdə sikkələri VIII-X əsrlərdə Qarabağ tarixinin öyrənilməsində mənbə kimi / «Gənc alimlərin I elm festivalı (13-15 iyul 2011)» çərçivəsində keçirilmiş elmi konfransın materialları. Bakı: 2011, s. 551-553

22. Bərdə zərbxanasının sikkələrinə dair (VI - IX əsrlər) / Milli Azərbaycan Tarixi Muzeyi. Bakı: Ziya-Nurlan, 2011, s. 269 - 277

23. VIII-IX əsrlərdə Azərbaycanın pul sisteminin tədqiqində Ziya Bünyadov əsərlərinin rolu / «Orta əsrlər Şərqinin tarixşünaslığı və mənbəşünaslığı» beynəlxalq elmi simpoziumunun materialları (7-8 may 2012). Bakı: Elm, 2012, s. 349-351

24. Milli Azərbaycan Tarixi Muzeyində qorunan Ərəb Xilafətinin qızıl dinarları İslam numizmatikasının tədqiqində mənbə kimi / «Azərbaycan tarixinin öyrənilməsində muzeylərin rolu» II Respublika elmi konfransının materialları (8.VI.2012). Bakı: Ziya, 2012, s. 135 - 142

25. Raşidi xəlifələr və ilkin Əməvilər dövründə Azərbaycanın pul təsərrüfatının səciyyəvi xüsusiyyətləri / Gənc alimlərin II Respublika İnnovativ İdeya Yarmarkası çərçivəsində Gənc alimlərin elmi konfransı (25-27 iyul 2012). Bakı: CBS Polygraphfic Production, 2012, s. 332 - 339

26. Milli Azərbaycan Tarihi Müzesinde korunan VIII asrın 80-ci yıllarının Haruniyye dirhemleri orta asrlarda Maraşın iktisadi hayatının araştırılmasında faktor gibi / Uluslararası Osmanlı döneminde Maraş sempozyumu (4-6 Ekim 2012). Bildiri özeti kitabçığı. Kahramanmaraş: Kahramanmaraş Belediyesi Kültür ve Sosyal İlimler Müdürlüğü, 2012, s. 50 - 51

27. VIII və IX əsrlərə dair Azərbaycan numizmatikasının tədqiqində akademik Vasim Məmmədəliyevin əsərlərinin tətbiqi / "Şərqşünalığın aktual problemləri" mövzusunda Respublika elmi konfransının materialları (14-15 noyabr 2012). Bakı: BU nəşriyyatı, 2012, s. 426 - 427

**Мамедова А.М.**

# Монетная чеканка и денежное обращение Азербайджана в период Арабского Халифата

## РЕЗЮМЕ

Диссертация посвящена изучению монетной чеканки и денежного обращения Азербайджана в VIII – IX вв. Работа состоит из введения, трех глав, заключения, списка использованной литературы и списка сокращений, а также раздела приложений, состоящего из таблиц, рисунков монет и топографических карт.

Во «Введении» обосновывается актуальность, определяются цели, задачи, базовый источник, степень изученности, научная новизна, основы методологии, выявляется теоретическая и практическая значимость диссертации.

В первой главе рассмотрена социально-экономическая, политическая ситуация Азербайджана в период первых арабских завоеваний, основываясь на нумизматические материалы выявлены особенности монетной чеканки и денежного обращения конца VI - начала VII вв., изучены характерные особенности различных монетных групп (арабо-сасанидские, табаристанские, византийские и др.) выявлены сасанидо-азербайджанские монетные дворы.

Во второй главе исследованы вопросы монетной чеканки и денежного хозяйства Азербайджана периода правления омейийадских халифов, рассмотрены причины, последствия денежной реформы Омейийадов, а также освещены деятельность омейийадо-азербайджанских монетных дворов.

В третьей главе основываясь на нумизматические находки, выявленные на территории Азербайджана, а также исторические источники, изучены монеты наместников аббасидских халифов, чеканенные на монетных дворах Азербайджана.

В «Заключении» подведен общий итог исследования, изложены соответствующие выводы.

**Mammadova A.M.**

## Coinage and monetary circulation of Azerbaijan in Arabian Caliphate

## SUMMARY

Dissertation deals with coinage and monetary circulation of Azerbaijan in VIII-IX centuries. Dissertation consists of the introduction, three chapters, the conclusion, a list of the literature, a list with abridgements including a section of appendix consisting of tables, an illustrative material and topographic maps.

In the Introduction is elaborated subject urgency, defined goals and tasks, the basic source, the degree of scrutiny of research issues, scientific novelty, basic methodology, revealed information about the theoretical and practical significance of the dissertation.

The first chapter analyses the social and political situation of Azerbaijan during the first Arab invasions, based on numismatic materials have been determined peculiarities of coining money and monetary circulation at the end of VI and the beginning of VII centuries, elaborated peculiarities of various monetary groups (arabian-sasanian, Tabaristan, Byzantine and others) of the reviewed period, investigated sasanian-azerbaijanian mint places.

The second chapter analyses issues of coinage and monetary economy in Azerbaijan during the reign of Omayyad's caliphs, investigated the causes and effects of monetary reform of Omayyad's as well as highlighting Omayyad's-Azerbaijan activity of mint places.

In the third chapter based on numismatic findings, discovered in the territory of Azerbaijan, as well as historical sources, in chronological sequence are studied the coins of governors of Abbasid's caliphs, which had been coined in mint yards of Azerbaijan.

In the conclusion is summed up the overall research and stated relevant results.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

*На правах рукописи*

**АЙГЮН МУСА кызы МАМЕДОВА**

# МОНЕТНАЯ ЧЕКАНКА И ДЕНЕЖНОЕ ОБРАЩЕНИЕ АЗЕРБАЙДЖАНА В ПЕРИОД АРАБСКОГО ХАЛИФАТА

5505.02 **-** Археология

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по истории

БАКУ – 2013